AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

MÜTDA
MƏKTƏBƏQƏDƏR VƏ ÜMUMİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ

birbank

RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

RAYON (ŞƏHƏR) MƏRHƏLƏSİ

Ad ______________________ Soyad ______________________

## 9-cu sinif

# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI

## Azərbaycan bölməsi

- İmtahan müddəti — **150 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- Sualların hər biri **5 balla** qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Rayon (şəhər) mərhələsinin nəticələrini **03.02.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ______________________

**1.** Nümunənin morfoloji təhlili ilə bağlı **yanlış** fikirləri seçin.
*Mənə bir sərgi salonu verin!*
*Orada bir insan şəkli asacağam - adi bir insan.*

1. Hal şəkilçisi ilə işlənmiş sözlər eyni nitq hissəsinə aid deyil.
2. Quruluşca düzəltmə söz adlıq haldadır.
3. Feillər eyni qrammatik məna növündə və feilin eyni şəklindədir.
4. Nümunədə köməkçi nitq hissələrindən yalnız ədat işlənib.
5. Sifət işlənmə yerinə görə azaltma dərəcəsində ola bilsə də, çoxaltma dərəcəsində olmur.
6. İsimlərdən biri işlənmə yerindən asılı olaraq sifət kimi düşünülə bilər.

A) 1, 3, 5 B) 2, 3, 5 C) 1, 4, 6
D) 2, 4, 6 E) 1, 2, 4

**2. Uyğunluğu müəyyənləşdirin.**
1. əmr ədatı
2. qüvvətləndirici ədat
3. arzu ədatı

a. Sən ha bir sonasan, cüda düşübsən
Bir bölük yaşılbaş sonadan, Pəri! (M.P.Vaqif)
b. Nə gözlərim səni görsün,
Nə könlüm qubar eyləsin. (A.Tufarqanlı)
c. Gəl qoşulaq durnalara
Vətən sarı uçaq... uçaq... (Anar)
d. Bircə dəfə öpə bildim telindən,
bircə dəfə:"Can!" eşitdim dilindən… (V.Əziz)
e. Əzizinəm, din barı,
Danış barı, din barı.
İgidə tab gətirməz,
Yağı tikən min barı. (bayatı)

A) 1-a,c; 2-d; 3-e B) 1-a,c; 2-b; 3-d
C) 1-c; 2-a,d; 3-e D) 1-c; 2-e; 3-d
E) 1-a; 2-b; 3-d,e

**3. Bütün məqamları nəzərə almaqla feillərə aid ortaq fikirləri seçin.**
* içirdi
* keçirdin

1. Feilin iki müxtəlif şəklində düşünmək olar.
2. İki müxtəlif zamanda düşünmək olar.
3. Tərkibində bir leksik, bir qrammatik şəkilçi var.
4. Quruluşca həm sadə, həm də düzəltmə söz kimi təhlil etmək olar.
5. Sözdə "idi" hissəciyinin işləndiyini əminliklə demək olmaz.

A) 2, 3, 5 B) 2, 3, 4 C) 1, 3, 4, 5
D) 1, 2, 3, 4 E) 2, 4, 5

**4. Hansı nümunədə yazılışı tələffüzündən fərqlənən beş şəkilçi işlənmişdir.**
A) Güləndə yanaqlarının batması ona xüsusi gözəllik verirdi.
B) Əsərdəki maraqlı dialoqlar gərginliyi daha da artırmışdır.
C) Heç gözləmirdik ki, bundan sonrakı fəaliyyətlərimizi dəyərləndirsinlər.
D) Nəticələrlə bağlı açıqlama verildikcə həyəcanlanırdıq.
E) Əlindəki çiçəkləri anasına çatdırmaq üçün səbirsizlənirdi.

**5.** Müasir tibb və əczaçılıq sahəsində bitkilərdən istifadə qədim sivilizasiyaların təcrübələrinə qədər gedib çıxır. Bu gün də dərman bitkiləri anlayışı müasir həyat tərzinin təbiətə qayıdışı ideallaşdırması ilə bütün dünyada məşhurlaşan bir trendin mühüm mövzularından birinə çevrilib. ................................................................. Təbiətin insanlığa bəxş etdiyi bu şəfa mənbələri müasir elm və texnologiyanın töhfələri sayəsində gələcəkdə də ümid mənbəyi olmağı davam etdirəcək.
**Məntiqi ardıcıllıq nəzərə alınaraq boşluğa hansı cümlə yazıla bilər?**

A) Bu gün bir çox yoluxucu xəstəliklərin müalicəsində müasir üsullarla yanaşı, ənənəvi üsullara da üstünlük verilir.
B) Buna görə də dünyada alternativ tibb tətbiqlərinin müasir tibb metodlarını geridə qoyduğu bir həqiqətdir.
C) Ənənəvi həyat tərzindən müasir həyata keçiddə insanlar şəfalı bitkiləri yenidən şərh edərək təsnif etmişlər.
D) Keçmişdə olduğu kimi bu gün də müalicə və sağlam həyat tərzi üçün bitki mənbələrindən istifadə edilir.
E) Yeni bitki növlərinin kəşfi ilə alternativ tibb sahəsindəki tərəqqi müasir tibbin müalicə üsullarının şübhə altına alınmasına səbəb olmuşdur.

**6. Hansı bənddə kökləri eyni olsa da, eyniköklü olmayan sözlər işlənmişdir?**
A) Yükü qaldırmaq üçün ehtiyat tədbirləri görülmüş, qaldırıcı kran işlək vəziyyətə gətirilmişdi.
B) Nənə ələyə üç-dörd boşqab un töküb ələdi, xəmir yoğurub kündələrə ayırdı.
C) Silahlanmış dəstə pusquda duraraq əraziyə girən silahlılara nəzarət edirdi.
D) İşçi komandasının sayı artırılmış, idarədə yoxlama aparılmış, artıq qalan vəsaitlər dövlətə təhvil verilmişdi.
E) Ana yaşadığı hadisədən hələ də özünə gələ bilmirdi: beş yaşlı oğlu bir an içində suda boğulacaqdı.

**7. Cədvəldəki verilənləri düzgün qruplaşdırın.**

| Söz | Leksik mənası |
|---|---|
| 1. sivri | a. düz, hamar |
| 2. şümal | b. kəskin təzad, fərq |
| 3. yalçın | c. iti, şiş |
| 4. kontrast | d. çox dik və çılpaq, sıldırımlı |

A) 1-b; 2-a; 3-c; 4-d
B) 1-c; 2-a; 3-d; 4-b
C) 1-a; 2-c; 3-d; 4-b
D) 1-c; 2-d; 3-b; 4-a
E) 1-a; 2-d; 3-b; 4-c

**8.** *“Əlabbas kişinin atası usta Həzrətqulu buranı alanda bu həyətdə ikiotaqlı, birmərtəbəli, kiçik bina vardı”* – **cümləsinin təhlili ilə bağlı doğru fikirdir.**
A) Cümlə üzvləri arasında uzlaşma əlaqəsinə cümlənin iki yerində rast gəlinir.
B) Ardıcıllıqla *zərflik, təyin, zərflik, təyin, təyin, təyin, mübtəda, xəbər* işlənmişdir.
C) Həmcins üzvlər bir-biri ilə tabelilik əlaqəsindədir.
D) Mübtəda mürəkkəb isimlə ifadə olunmuşdur.
E) Nümunədəki təyinlərin hamısı həmcinsdir.

**9. Verilən sözlərin ilk hərfini qarşısında verilmiş hərflərlə əvəz etsək, yaranan sözlərin hamısında omonimlik xüsusiyyəti olacaq. Bir bənddə bu uyğunluq gözlənilməyib.**
A) şan – q, d
B) yal – d, s
C) sarı – y, q
D) dad – y, ş
E) yaş – d, ç

**10. Verilən fikirlərdən biri yanlışdır.**
A) Cümlədə “-sə” şəkilçisi varsa, həmin cümlə quruluşuna görə sadə ola bilməz.
B) “Gülməlidir” feili cümlənin həm ismi, həm də feili xəbəri ola bilər.
C) “Qaçaq” sözünü tərkibinə görə 3 cür təhlil etmək olar.
D) Təsriflənən feillər cümlədə feili xəbərin ifadə vasitəsi olur.
E) Tərkibində qrammatik şəkilçi olan sözlər də eyniköklü söz ola bilər.

**11. Doğru fikirləri seçin.**

<table>
<tr><td>Çoxmənalı sözlər</td><td>Omonimlər</td><td>Antonimlər</td></tr>
<tr><td>1. Məna tayları eyni leksik məna ilə bağlı olur.</td><td colspan="2"></td></tr>
<tr><td colspan="3">2. Sözün  məcazi mənada işlənməsinə əsasən müəyyənləşir.</td></tr>
<tr><td colspan="2">3. Yazılışı və tələffüzü eyni olur.</td><td></td></tr>
<tr><td></td><td colspan="2">4. Məna tayları həmişə eyni nitq hissəsinə aid olmalıdır.</td></tr>
</table>

A) 1, 2, 3  B) yanlız 1, 3  C) yalnız 2, 4
D) 1, 3, 4  E) yanlız 3, 4

**12.  Cədvələ əsasən yanlış fikirləri müəyyən edin.**

| Yazılışında səhv yoxdur. | Yazılışında bir səhv var. | Yazılışında iki səhv var. |
|---|---|---|
| 1. Humanitar siyasət məsələləri şöbəsi | 4. Beynəlxalq Ana dili Günü | 7. Nəsimi adına Dilçilik İnstitutunun terminologiya şöbəsi |
| 2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri | 5. Azərbaycan Respublikasının Baş Naziri | 8. Bakı şəhər İcra hakimiyyəti |
| 3. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 6. Əməkdar İncəsənət xadimi | 9. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu |

A) 1, 3, 5, 7  B) 2, 4, 8
C) 2, 7, 9  D) 3, 6, 9
E) 1, 4, 6, 7

**13. A.İldırımın "Əsir Azərbaycanım" şeirinin məzmunu ilə bağlı doğru fikri müəyyənləşdirin.**
A) Şeir bəndlər şəklində yazılmışdır.
B) Sənətkar coşqun Xəzər vasitəsilə vətəninə salam göndərir.
C) Qafiyə quruluşu *aaabb* şəklindədir.
D) İlk bənddən müəllifin vətən həsrətilə yandığı bilinir.
E)  Şeirdə bədii suallardan istifadə olunmuşdur.

**14.** A.Şaiqin "Anabacı" əsəri ilə bağlı **yanlış** fikirləri müəyyən edin.
1. Anabacı qəlbinin genişliyi ilə yadda qalan bir obrazdır.
2. Əsərin təhkiyəçisi müəllifin özüdür.
3. Anabacının uşaqlıq illərinin xoş xatirələrindən danışması yazıçıda ona qarşı rəğbət  hissi yaradır.
4. Yazıçı Anabacını "köhnə nəslin son qəhrəmanı" hesab edir.
5. Kasıb olmasına baxmayaraq, Anabacı heç bir məsələdən ötrü kimsəyə ağız açmır.
6. Atababadan və nəvələrindən başqa kimsəsi olmayan bu qadının mənəviyyatını yoxsulluq kirlədə bilməmişdir.
A) 2, 3, 6  B) 1, 2, 4  C) 1, 4, 5
D) 3, 5, 6  E) 2, 4, 6

**15. C.Cabbarlının "Ana" şeiri ilə bağlı doğru fikri müəyyən edin.**
A) Əruz vəznində, beytlər şəklində yazılmışdır.
B) "Kimdir o? Nədir o?" bədii sualları əsərin bədii təsir gücünü artırmışdır.
C) Müəllif heç nədən qorxmadığını, yalnız ölüm qarşısında çarəsiz olduğunu dilə gətirir.
D) Şeirdə təbiət hadisələrinə müraciət edilməsi ana obrazının emosional hisslərini ifadə edir.
E) Lirik qəhrəman anaya olan sevgisini tərənnüm edərək özünü itaət edən rahibə bənzədir.

**16.** M.Ə.Sabirin "Əkinçi" şeiri ilə bağlı hansı fikir **yanlışdır**?
A) Şeirdə kəndlinin ağır vəziyyəti mülkədarı əsla narahat etmir.
B) Kəndlinin amansızcasına istismar olunması, onun zəhmətinin boş getməsi əks olunmuşdur.
C) Mülkədar ilə kəndlinin dialoqu əsasında yazılmış satira kəskin tənqid üzərində qurulmuşdur.
D) Mülkədar insanlığı, əsl insan olmağı dəbdəbəli həyat sürmək ilə eyniləşdirir.
E) Kəndlinin yalvarışları, məzlum vəziyyəti mülkədara görə "özünü tülkülüyə qoymaq"dır.

**17. "Dəhnamə" (Ş.İ.Xətayi) əsərindən verilmiş nümunələrdən biri təsvir vasitəsinin işlənib işlənməməsinə görə digərlərindən fərqlənir.**
A) Gülmaxdan ənar açıldı dəndan.
B) Alma ağacı dibində sayə.
C) Nərgis oturur gözündə xabi.
D) Lalə oturur başında taci.
E) Ağ donunu geydi yasəmənlər.

**18.** "Koroğlu" dastanının "Durna teli" qolunda hansı hadisənin səbəbi **verilməyib**?
A) Koroğlunun belə bir xasiyyəti vardı ki, düşmən əlinə keçəndə Koroğlu olduğunu boynuna almazdı.
B) Giziroğlu Mustafa bəy dəstəsi ilə Çənlibelə gələndə bir tərəfə çəkilib gözlədi.
C) Eyvaz durna teli gətirmək üçün izin alanda Koroğlu əvvəlcə fikirləşdi ki, razılıq verməsin.
D) Giziroğlu Mustafa bəy başının adamları ilə Bağdada gəldi.
E) Telli xanımın kefi saz idi.

**19. M.İbrahimovun "Azad" hekayəsindən verilmiş hadisələrin düzgün ardıcıllığını bərpa edin.**

| |
|---|
| Azad Təbrizin bir məhəlləsində dərzi şagirdliyinə başlayır. |
| ............................................... |
| Fərda Azərbaycan xalq konqresinə nümayəndə seçilir. |
| ................................................. |
| Fərda Azadı ağır yaralanmış vəziyyətdə görür. |

1. Azadın atası dünyasını dəyişir.
2. Fərda Azadın fədai dəstələrindən birinə başçılıq etdiyini öyrənir.
3. Anası Azadı məktəbdən ayırmağa məcbur olur.
4. Fərda anası ilə kəndə köçür.
5. Azad fərşin ucunu qaldırıb torpağı öpür.

A) 5, 2 B) 2, 3 C) 4, 2 D) 1, 3 E) 5, 4

**20. Uyğunluq gözlənilmiş bəndi seçin.**
1. mövzu
2. ideya
3. tərənnüm
*a. Əsərdə bədii dilin mühüm hissəsidir, bəzən məcazlar da adlanır.*
*b. Yazıçının oxucuya çatdırmaq istədiyi başlıca fikir, niyyətidir.*
*c. Yazıçının diqqət mərkəzinə çəkdiyi əsas həyati məsələlər, səciyyəvi hadisələrdir.*
*d. Bədii əsərdə hadisələrin, obrazların, əşyaların və s. əlamətlərinin sözlə ifadəsidir.*
*e. Bədii əsərdə hadisələrin, qəhrəmanların hərəkətlərinin və s. yaratdığı xoş hisslərin, müsbət arzu və istəklərin obrazlı və ahəngdar ifadəsidir.*
A) 1-a,c; 2-d; 3-e
B) 1-c; 2-b; 3-a
C) 1-c; 2-b; 3-e
D) 1-c, d; 2-a,b; 3-e
E) 1-a; 2-b; 3-d